AZƏRBAYCAN RESPUBLIKASI TƏHSIL NAZİRLİYİ
BAKI DÖVLƏT UNİVERSİTETİ

*Əlyazması hüququnda*

**ORUCOVA AYNUR HƏMZAĞA QIZI**

# AZƏRBAYCAN RESPUBLİKASINDA RİFAHIN İNTEQRAL GÖSTƏRİCİLƏRİNİN MODELLƏŞDİRİLMƏSİ

**Ixtisas: 5302.01 – "Ekonometriya"**

**İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın**

**AVTOREFERATI**

**BAKI - 2014**

Dissertasiya işi Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutunda yerinə yetirilmişdir.

**Elmi rəhbər:** Əməkdar elm xadimi,
iqtisad elmlər doktoru,
pofessor **V.M.Vəliyev**

**Rəsmi opponentlər:** iqtisad elmlər doktoru,
pofessor **Y.H.Həsənli**

iqtisad üzrə fəlsəfə doktoru,
dosent **V.A.Mütəllimova**

**Aparıcı müəssisə:** Azərbaycan Texniki Universitetinin
"Sənaye iqtisadiyyatı və menecment"
kafedrası

Müdafiə "25" "noyabr" 2014-cü il tarixdə saat $14^{00}$ – da Bakı Dövlət Universitetinin nəzdindəki FD.02.016 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ.1148, Bakı ş., Z.Xəlilov küç., 23.
Bakı Dövlət Universiteti

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat "23" "oktyabr" 2014-cü il tarixdə göndərilmişdir.

**FD.02.016 Dissertasiya**
**Şurasının elmi katibi:** **r.e.d., prof. N.Q.Əhmədov**

## İŞİN ÜMUMİ XARAKTERİSKASI

**Mövzunun aktuallığı.** Azərbaycan Respublikasında həyata keçirilən sosial-iqtisadi siyasətin prioritetləri sırasında yüksək rifah səviyyəsinə nail olunması, əhalinin, xüsusilə, onun sosial cəhətdən zəif təbəqələrinin maraqlarının qorunması, məşğulluğun stimullaşdırılması önəmli yer tutur.

Rifahın əsas göstəricilərindən olan gəlirlərin ədalətli bölünməsi və müxtəlif əhali qruplarının istehlak nemətlərinə əlyetərliliyinin təmin olunması, cəmiyyətdə vətəndaş həmrəyliyinin və sosial rifahın əldə olunması baxımından mühüm əhəmiyyət kəsb edir.

Əhalinin rifah halının daha yüksək səviyyəyə çatdırılması istiqamətində məqsədyönlü dövlət tədbirlərinin həyata keçirilməsi rifahın kəmiyyət və keyfiyyətcə ölçülməsi üsullarının və metodoloji əsaslarının təkmilləşdirilməsini, ona təsir edən faktorların tədqiqini, eləcədə, obyektiv və subyektiv qiymətləndirilməsi üçün riyazi aparatın təkmilləşdirilməsini zəruri edir.

Rifahın obyektiv və subyektiv aspektlərinin rəsmi və alternativ məlumat mənbələrinə əsaslanmaqla tədqiqi və modelləşdirilməsi üçün istifadə olunan və sosial sahədə öz spesifikliyi ilə fərqlənən iqtisadi-riyazi üsulların təkmilləşdirilməsinin həm elmi-nəzəri, həm də sosial-iqtisadi siyasət sahəsində effektiv qərarların qəbul edilməsi baxımından əhəmiyyətliliyi seçilən mövzunun aktuallığını şərtləndirir.

**Problemin öyrənilmə səviyyəsi.** Əhali gəlirlərinin formalaşması və bölgüsü, sosial bərabərsizlik, yoxsulluq, əhalinin arуı-ayrı təbəqələrinin rifahı və bütün bunlara təsir edən faktorların tədqiqi, qiymətləndirilməsi və modelləşdirilməsi məsələləri həm klassik, həm də müasir iqtisadçıların daim diqqət mərkəzində olmuşdur. Bu məsələlərlə bağlı elmi tədqiqatlar klassik və müasir iqtisadçılardan A.Smitin, C.Hobsonun, İ.Bentamın, Q.Sicvikin, A.Marşallın, F.Edjuortun, V.Paretonun, A.Breqsonun, A.Piqunun, C.Keynsin, A.Senin, Fosterin, Greerin, Torbekenin və başqalarının əsərlərində öz əksini tapmışdır.

Müasir dövrdə əhalinin rifahı və onun əsas göstəricilərinin, o cümlədən əhalinin gəlirlərinin formalaşmasının və bölgüsünün qiymətləndirilməsi və modelləşdirilməsi məsələləri xarici ölkələrin bir çox görkəmli alimlərinin əsərlərində müxtəlif aspektlərdən tədqiq edilmişdir. Rusiya alimlərindən E.E.Rumyantsevanın, V.M.Jerebinin,

A.N.Romanovun, A.E.Surinovun, A.A.Poduzovun, V.Y.Raytsinin, O.V.Zayatsın, A.İ.Rofenin və başqalarının tədqiqatlarında rifah və yoxsulluq məsələləri araşdırılmış, əhali arasında aparılan sosioloji sorğuların nəticələrinin təhlilində iqtisadi-riyazi metodlardan istifadə edilmişdir.

Respublikamızda da bu istiqamət üzrə problemlərin araşdırılması bir sıra tədqiqatçı-alimlərin diqqət mərkəzində olmuşdur. Azərbaycan alimlərindən T.Ə.Quliyev, Ə.Q.Əlirzayev, A.F.Musayev, Q.C.İmanov, Y.H.Həsənli, M.H.Məmmədova, R.K.İsgəndərov, Ə.T.Nağıyev, V.A.Mütəllimova və digər alimlər tərəfindən əhalinin gəlirlərinin paylanması və ona təsir edən amillərin qiymətləndirilməsi, həyat səviyyəsinin əsas göstəriciləri və s. məsələlər metodoloji və tətbiqi baxımdan tədqiq olunmuş, müxtəlif sosial-iqtisadi proseslərin iqtisadi-riyazi modelləri qurulmuş və elmi-praktiki əhəmiyyətə malik nəticələr alınmışdır.

Təqdim olunan dissertasiya işində qeyd edilən tədqiqatlardan fərqli olaraq iqtisadi-riyazi metodlardan və alternativ məlumat mənbələrindən istifadə etməklə problemə kompleks yanaşmaya cəhd edilmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi rifahın və onun inteqral göstəricilərinin qiymətləndirilməsi üçün metod və modellərin işlənməsindən ibarətdir.

Tədqiqatın məqsədinə nail olmaq üçün aşağıdakı vəzifələrin həlli qarşıya qoyulmuşdur:

- rifah səviyyəsinin qiymətləndirilməsinə dair elmi-nəzəri yanaşmaların ümumiləşdirilməsi və sistemləşdirilməsi;
- rifahın inteqral göstəricilərinin modelləşdirmə obyekti kimi tədqiqi və təsnifatlaşdırılması;
- əhalinin rifah səviyyəsinin yüksəldilməsinə təsir edən göstəricilərinin qiymətləndirilməsi üsullarının araşdırılması;
- rifahın inteqral göstəricilərinin qiymətləndirilməsi və modelləşdirilməsinə mövcud yanaşmaların tədqiqi;
- rifahın inteqral göstəricilərinə makroiqtisadi faktorların təsirinin qiymətləndirilməsi üçün reqressiya modellərinin qurulması;
- rifahın inteqral göstəriciləri ilə demoqrafik faktorların qarşılıqlı asılılığının modelləşdirilməsi;
- Azərbaycan Respublikasında rifahın inteqral göstəricilər əsasında iqtisadi-riyazi aparat vasitəsi ilə təhlili və qiymətləndirilməsi;

- rifahın subyektiv qiymətləndirilməsi üçün ekonometrik modelin qurulması metodikasının işlənməsi;

- Azərbaycan Respublikasında rifahın subyektiv qiymətləndirilməsi modelinin qurulması və praktiki reallaşdırılması;

- Azərbaycanda bazar iqtisadiyyatı şəraitində əhalinin rifahının yaxşılaşdırılması istiqamətində elmi cəhətdən əsaslandırılmış təkliflərin işlənməsi.

**Tədqiqat obyekti və predmeti.** Tədqiqatın obyektini Azərbaycan Respublikasının əhalisi, predmetini isə əhalinin rifahı və onun inteqral göstəriciləri sistemi təşkil edir.

**Tədqiqat işinin nəzəri və metodoloji əsaslarını** iqtisad elminin görkəmli alimlərinin problemlə bağlı mövcud yanaşma və nəzəriyyələri, sosial-iqtisadi inkişafın modelləşdirilməsi və əhali rifahının tədqiqi sahəsində beynəlxalq təcrübə və Azərbaycan Respublikasının tədqiqat obyekti və predmetinə dair qanunvericilik aktları təşkil edir.

**Tədqiqatın informasiya mənbəyini** problemlə baglı rəsmi statistik məlumatlar, Respublikanın müvafiq Nazirliklərinin materialları, Dünya Bankının, Birləşmiş Millətlər Təşkilatının məlumatları, İnternet resurslar, sosioloji tədqiqatların nəticələri, yerli və xarici ölkələrin nəşrləri, problem üzrə beynəlxalq və yerli konfrans və seminarların materialları təşkil edir.

**Tədqiqat üsulları.** Tədqiqatda iqtisadi-statistik, analitik, müqayisəli və sosioloji təhlil, çoxölçülü qoşma cədvəllərin təhlili, korelyasiya-reqresiya modelləşdirilməsi və faktor təhlili üsullarından istifadə edilmişdir. İlkin məlumatların emalı üçün SPSS 13 tətbiqi proqram paketindən və MS Excel-dən istifadə olunmuşdur.

**Tədqiqat işinin əsas elmi yeniliyini** əhali rifahının kompleks şəkildə tədqiqi və modelləşdirilməsi təşkil edir. Tədqiqatın elmi yeniliyini şərtləndirən əsas nəticələr aşağıdakılardır:

- rifahın inteqral göstəriciləri modelləşdirmə obyekti kimi müəyyənləşdirilmiş və müxtəlif əlamətlər üzrə təsnifatlaşdırılmışdır;

- rifahın inteqral göstəricilərinə təsir edən makroiqtisadi faktorlar aşkarlanmış və modelləşdirilmişdir;

- rifahın inteqral göstəriciləri iə demoqrafik faktorlar arasındakı asılılıq müəyyənləşdirilmiş və onlar arasında münasibət modelləşdirilmişdir;

- rifahın qiymətləndirilməsinə obyektiv və subyektiv yanaşmaların kompleks tətbiqinin zəruriliyi əsaslandırılmışdır;

- rifah səviyyəsinin subyektiv qiymətləndirməsi üçün subyektiv qradasiyalar şkalası işlənmişdir;

- Azərbaycanda əhalinin rifahını xarakterizə edən inteqral göstəricilər sistemli təhlil edilmiş və qiymətləndirilmişdir;

- rifahın subyektiv qiymətləndirilməsi üçün ev təsərrüfatlarının sosial-iqtisadi vəziyyətini və demoqrafik profilini əks etdirən göstəricilər və subyektiv qiymətləndirmə şkalası əsasında sıralanmış loqistik modellərin qurulması metodikası işlənmişdir;

- Azərbaycan Respublikasında ev təsərrüfatlarının rifah səviyyəsinin yüksəldilməsinə təsir edən faktorların aşkarlanmasına imkan verən rifahın subyektiv qiymətləndirilməsi modeli qurulmuş və praktiki reallaşdırılmışdır.

**Tədqiqatın nəzəri əhəmiyyəti** sosial-iqtisadi sistemlərin modelləşdirilməsinin nəzəri-metodoloji əsaslarının inkişafından ibarətdir.

**Tədqiqat işinin praktiki əhəmiyyətililyi** seçilmiş metodologiya və tərtib olunmuş modellər vasitəsilə əhali rifah səviyyəsinin təhlil olunmasına və qiymətləndirilmələrin aparılmasına imkan verməsidir.

**İşin aprobasiyası və nəticələrin tətbiqi** baxımdan alınmış elmi-praktiki nəticələri bir sıra beynəlxalq Respublika elmi-praktiki konfranslarında məruzə olunmuş və müzakirələri aparılmışdır.

Eyni zamanda Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Əmək və Sosial Problemlər üzrə Elmi-Tədqiqat və Tədris Mərkəzi tərəfindən tətbiq edilmək üçün qəbul edilmişdir.

**Tədqiqat işinin nəticələri üzrə dərc olunmuş materiallar.** Dissertasiya işinin mövzusu üzrə 1 məqalə xaricdə olmaqla 3,8 çap vərəqi həcmində 7 məqalə və 2 tezis nəşr edilmişdir.

**Tədqiqat işinin həcmi və quruluşu.** Dissertasiya işi giriş, 3 fəsil, nəticə, əlavələr və 134 adda ədəbiyyat siyahısı (10 səhifə) olmaqla 185 səhifədən, o cümlədən 96 formul, 19 cədvəl, 16 şəkil və 11 əlavədən (9 səhifə) ibarətdir.

## DİSSERTASİYA İŞİNİN ƏSAS MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı əsaslandırılır, problemin öyrənilmə səviyyəsi, tədqiqatın məqsədi, vəzifələri, obyekti, metodoloji və nəzəri

əsasları, informasiya mənbəyi, tədqiqat usulları və aparatları, elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti şərh edilir, işin aprobasiyası və strukturu haqqında məlumat verilir.

Dissertasiya işinin **"Əhali rifahının sosial-iqtisadi kateqoriya kimi öyrənilməsinin elmi-nəzəri əsasları"** adlanan birinci fəslində əhali rifahının öyrənilməsinə klassik və müasir elmi-nəzəri yanaşmalar nəzərdən keçirilmiş, onların ümumiləşdirilməsi və sistemləşdirilməsi əsasında əhali rifah səviyyəsi sosial-iqtisadi kateqoriya kimi müəyyənləşdirilmiş, rifah səviyyəsinin inteqral göstəriciləri modelləşdirmə obyekti kimi araşdırılmış və təsnifatlaşdırılmış, əhalinin rifah səviyyəsinin yüksəldilməsi istiqamətləri və yoxsulluq göstəricilərinin qiymətləndirilməsi üsulları tədqiq edilmişdir.

Belə nəzəri yanaşmalardan rifahla bağlı elmi-nəzəri məsələlərin və riyazi aparatın işlənməsində gəlirin həcmi ilə onu əldə edənlərin sayı arasındakı asılılığı əks etdirən Pareto qanunu böyük əhəmiyyət kəsb edir. Qeyd edək ki, bu qanun reallıqda çox vaxt 20%-in fəaliyyətinin nəticələri təxminən 80%-in təmin etməsi fərziyyəsinə söykənir.

Eyni zamanda fərdi və ictimai rifahın yüksəldilməsində dövlətin iqtisadi rolunun gücləndirilməsi məsələsi C.Keyns tərəfindən irəli sürülmüş və beləliklə, müəyyən mənada rifahın təhlilinə Smitə xas olan ictimai mövqedən yanaşmaya qayıdış olmuşdur.

Dissertasiyada ictimai və fərdi rifah problemlərinə mövcud elmi-nəzəri yanaşmaların ümumiləşdirilməsi və sistemləşdirilməsi əsasında müəllif tərəfindən müəyyən mənada bərabərlik və ictimai mülkiyyətin hakim olmasına; bərabərsizlik və şəxsi mülkiyyətin üstünlüyü fərziyyəsinə; insan və ictimai kapitalın formalaşması və tamhüquqlu tərəfdaşlığın inkişafına əsaslanan və institusional münasibətlərin yüksəlişi imkanlarını nəzərdə tutan elmi istiqamətlər müəyyənləşdirilmişdir.

Eyni zamanda əhalinin rifahına təsir göstərən amillər təsir sahəsi üzrə qruplaşdırılmışdır (şəkil 1).




**Şək.1. Rifah səviyyəsinə təsir edən faktorlar**

Rifahın tam və hərtərəfli qiymətləndirilməsi üçün iqtisadi-riyazi modelin qurulması nöqteyi-nəzərindən onu səciyyələndirən indikatorları təkkomponentli və çoxkomponentli kimi qruplaşdırmaq olar. Təkkomponentli indikatorlar qiymətləndirici göstəricilərə qoyulan əhatəlilik, ümumiləşdiricilik və universallıq kimi tələblərə cavab vermir. Daha çox informativ xarakterə malik olan çoxkomponentli indikatorlar isə bu tələblərə cavab verərək, gəlir və həyat dəyəri arasındakı qarşılıqlı əlaqəni və nisbəti əks etdirir. Əhali rifahının qiymətləndirilməsi və modelləşdirilməsi üçün çoxkomponentli inteqral göstəricilər sistemini əsas götürmək məqsədəmüvafiq hesab edilmişdir.

**“Rifahın inteqral göstəricilərinin obyektiv qiymətləndirilməsi və modelləşdirilməsi”** adlanan ikinci fəsildə rifahın inteqral göstəricilərinin qiymətləndirilməsi və modelləşdirilməsi zamanı tətbiq edilə biləcək mövcud yanaşmalar ümumiləşdirilmiş və bu metodologiyalar əsasında makroiqtisadi faktorların təsiri qiymətləndirilmiş, eyni zamanda demoqrafik faktorların qarşılıqlı asılılığının reqressiya modelləri qurulmuşdur.

Ümumiyətlə, rifah səviyyəsinin qiymətləndirilməsi zamanı həm subyektiv, həm də obyektiv metodoloji yanaşmalar əsasında qiymətləndirilir. Belə qiymətləndirmələr sosioloji sorğular vasitəsi ilə mümkün olur.

Obyektiv qiymətləndirmə rifah göstəricilərinin carı qiymətlərinin keçmiş dövrlərdəki analoji qiymətlərlə, habelə müxtəlif ölkələr və regionlar üzrə müqayisəsinə imkan verən statistik məlumatlar əsasında həyata keçirilir.

Obyektiv qiymətləndirilmə üçün istifadə olunan inteqral göstəricilər sırasında, təhsil indeksi və gəlir indeksi əsasında hesablanan *HDI* isə əhalinin həyat keyfiyyətinin qiymətləndirilməsi üçün istifadə olunur.

Azərbaycanda Cini əmsalının makroiqtisadi faktorlardan asılılığının aşağıdakı reqressiya modelləri qurulmuşdur:

1. Cini əmsalının minimum əməkhaqqının artım sürətindən asılılığı:

$$\ln(G) = -1.798 - 0.032 \ln(meas)$$

$$R^2 = 0.432, \quad DW = 2.726$$

Nəticə: minimum əməkhaqqının hər 1% artımı Cini əmsalının 0,032% azalmasına səbəb olur.

2. Cini əmsalının minimum əməkhaqqının orta aylıq əməkhaqqına nisbətini əks etdirən Keyts indeksindən (*K*) asılılığı:

$$G = 0.265 - 0.371\,K$$

$$R^2 = 0.243,\ DW = 1.390$$

Nəticə: Keyts indeksinin 1 vahid artımı Cini əmsalını 0,371 vahid azaldır. Belə nəticə qanunauyğundur. Belə ki, minimum əməkhaqqının mərhələlərlə artırılması və onun orta aylıq əməkhaqqına nisbətinin vahidə yaxınlaşması digər bərabər şərtlərlə cəmiyyətdə gəlirlərin bərabərsizliyinin azalmasına səbəb olur.

3. Cini əmsalının ölkədə hər təhsil alana dövlət xərclərinin əhalinin adambaşına düşən ÜDM-də xüsusi çəkisindən asılılığı:

$$G = 0.180 - 0.027\,teh_udm$$

$$R^2 = 0.248,\ DW = 2.123$$

Nəticə: hər təhsil alana dövlət xərclərinin adambaşına ÜDM-də xüsusi çəkisinin 1 vahid artımı Cini əmsalını 0,027 vahid azaldır, yəni gəlir bərabərsizliyinin az da olsa mülayimləşməsinə səbəb olur.

*HDİ* indeksi ilə makroiqtisadi faktorlar arasındakı əlaqənin modelləşdirmilməsinin nəticələri aşağıdakı kimi olmuşdur:

1. *HDİ*-nin əhalinin adambaşına düşən ÜDM-in artım sürətindən (*udm*) asılılıq modeli:

$$HDI = 0.719 + 0.109\,udm,$$

$$R^2 = 0.636,\quad DW = 1.261$$

Nəticə: ÜDM-in bir vahid artımı HDİ-ni 0,109 vahid artırır və *HDİ*-nin dəyişməsi 63,6% bu faktordan asılıdır.

2. *HDİ*-nin minimum əməkhaqqının artım sürətindən (*meas*) asılılıq modeli:

$$HDI = 0.730 + 0.098\,meas,$$

$$R^2 = 0.542,\quad DW = 2.51$$

Nəticə: *HDİ*-nin minimum əməkhaqqının artımından asılılığı 54,2% təşkil edir, minimum əməkhaqqının bir vahid artımı *HDİ*-ni 0,098 vahid artırır.

3. *HDİ*-nin adambasına gəlirin artım sürətindən (*adg*) asılılıq modeli:

$$HDI = 0.734 + 0.083\,adg,$$

$$R^2 = 0.163,\quad DW = 2.61$$

Nəticə: *HDİ*-nin adambasına gəlirin artımından asılılığı cəmi 16,3% təşkil edir. Adambasına gəlirin 1 vahid artımı *HDİ*-ni 0,083 vahid artırır.

Beləliklə, qurulmuş reqressiya modellərinin təhlili göstərir ki, *HDİ*-yə təsir edən faktorlar arasında birinci yer əhalinin adambaşına düşən ÜDM-in artımına məxsusdur.

Əhalinin rifah səviyyəsi ilə tərs mütənasib olan yoxsulluq səviyyəsinin (*p*) qiymətləndirilməsi üçün onun konkret amillərlə deyil, zamanla bağlı öyrənilməsinin məqsədəuyğunluğu nəzərə alınmış və aşağıdakı düzxətli hamarlama tənliyi qurulmuşdur:

$$p = 5.19 - 0.413 * t$$

$$R^2 = 0.920$$

Nəticə: yoxsulluq səviyyəsinin illik azalma tempi 0,4% təşkil edir. Modeldən istifadə edərək, gələcək dövr üçün yoxsulluq səviyyəsini proqnozlaşdırmaq olar.

Yoxsulluq səviyyəsini nəticə göstərici, əhalinin adambaşına aylıq pul gəlirlərinin yaşayış minimumuna nisbətini (*d*) isə izahedici faktor kimi qəbul edərək reqressiya tənliyini qurulmuşdur:

$$p = 37.947 - 10.192 d$$

$$R^2 = 0.639, \quad DW = 1.954$$

Nəticə: adambaşına aylıq pul gəlirlərinin yaşayış minimumuna nisbətinin 1 vahid artımı yoxsulluğun səviyyəsini 10,2% azaldır. Yəni, yaşayış minimumunun adambaşına aylıq pul gəlirlərinin səviyyəsinə yaxınlaşması yoxsulluğun səviyyəsinin azalmasına səbəb olur. Modelin xarakteristikaları yoxsulluğun dəyişməsinin 63,9% baxılan faktordan asılı olduğunu göstərir.

Yoxsulluq səviyyəsinin adambaşına düşən ÜDM-dən (*u*) və Cini əmsalından (*g*) asılılığını müəyyənləşdirmək üçün aşağıdakı reqressiya modeli qurulmuşdur:

$$\ln(p) = 21.017 - 2.133 \ln(u) + 3.069 \ln(g),$$

$$R^2 = 0.918, \quad DW = 2.452$$

Nəticə: model etibarlıdır (asılı olmayan dəyişənlər asılı dəyişəni 91,8% izah edir). Yoxsulluq səviyyəsinin hər iki faktorun dəyişməsindən asılılığı güclüdür. Belə ki, adambaşına düşən ÜDM-in 1% artımı yoxsulluq səviyyəsini 2,1% azaldır, Cini əmsalının 1% artımı isə yoxsulluğun 3,1% artmasına səbəb olur.

Beləliklə, yoxsulluq səviyyəsinin azalmasına ən çox təsir edən göstərici adambaşına aylıq pul gəlirlərinin yaşayış minimumuna nisbətidir. Öz növbəsində adambaşına düşən ÜDM və Cini əmsalı ilə yoxsulluq səviyyəsinin dəyişməsi arasında da əhəmiyyətli dərəcədə asılılıq mövcuddur. Başqa sözlə, yoxsulluq səviyyəsinin gəlirin dəyişməsinə qarşı elastikliyi onların bölüşdürülməsindəki dəyişikliklərə nisbətən daha çoxdur.

Yoxsulluq səviyyəsinin ev təsərrüfatlarının gəlirlərində əsas yer tutan sosial transfertlər sisteminin mühüm komponenti olan ünvanlı dövlət sosial yardımının adambaşına düşən orta aylıq məbləği ilə müqayisəsini əks etdirən modellər qurulmuşdur:

$$usy = 34.165 - 1.345\, p$$

$$R^2 = 0.829, \quad DW = 1.063$$

Nəticə: yoxsulluq səviyyəsinin bir vahid azalması üçün ünvanlı sosial yardımın adambaşına düşən orta aylıq məbləği 1,3 vahid artmalıdır.

Eyni asılılığın daha dəqiq qiymətləndirilməsi üçün loqarifmik model də qurulmuşdur:

$$\ln(usy) = 1.361 - 0.686\, p$$

$$R^2 = 0.647, \quad DW = 1.065$$

Nəticə: yoxsulluq səviyyəsinin 1% azalması üçün ünvanlı sosial yardımın adambaşına orta aylıq məbləği 0,7% artmalıdır.

Məlumdur ki, əhlinin rifah vəziyyəti və demoqrafik göstəricilər arasında qarşılıqlı əlaqə mövcuddur. Əhalinin yaş strukturu, təhsil səviyyəsi və gəlirləri arasındakı əlaqələrin öyrənilməsi sahəsində müxtəlif tədqiqatlar aparılmışdır. N.Leff-in təklif etdiyi əhalinin aşağı yaş qrupunun sayı çox olduqca istehlak tələblərinin artması və daxili yığımın azalması müddəasına əsaslanan model xüsusi əhəmiyyət kəsb edir. N.Leff hesab edirdi ki, adambaşına düşən ÜDM həcmi yığımın həcminə müsbət təsir göstərir və onun artımı ilə bu təsir zəifləsədə, adambaşına düşən ÜDM-in illik artımı əsasən saxlanılır. Demoqrafik yük isə yığım səviyyəsinə mənfi təsir göstərir.

Azərbaycanda demoqrafik göstəricilərinin əhalinin rifahına təsirinin qiymətləndirilməsi məqsədi ilə onun modelləşdirilməsi məsələsinə baxılmış və 1999-2012-ci illər üçün statistik məlumatları əsasında Goldbergerin modeli qurulmuşdur:

$$\ln(S/Y) = 4{,}583 - 2{,}162\ln(Y/N) + 0{,}712(Y/N)^* - 9{,}442\ln D_1 - 1{,}832\ln D_2$$

$$R = 0{,}907\ ,\quad R^2 = 0.823\ ,\quad DW = 1.433$$

Nəticə: rifaha digər göstəricilərə nisbətən uşaqların demoqrafik yükü daha çox təsir göstərir. Belə ki, uşaqların demoqrafik yükünün 1% artması əhalinin məcmu gəlirlərində ümumi daxili yığımın xüsusi çəkisinin 9,4% azalmasına səbəb olur. Eyni zamanda, ahılların demoqrafik yükü də nisbətən aşagı səviyyədə olsa da, öz təsirini göstərir.

Rifahın əsas göstəricilərindən olan ev təsərrüfatlarının məcmu gəlirlərinin formalaşmasına təsir edən demoqrafik göstəricilərə əməkqabiliyyətli kişilərin və qadınların, pensiyaçıların, uşaqların, sağlamlıq imkanları məhdud 18 yaşadək üzvlərinin, əlillərin və s.-in saylarında baş verən dəyişikləri aid etmək olar. Bu parametrlərin əhalinin rifah səviyyəsinə təsirləri disertasiya işində öz əksini tapmışdır. Qeyd edək ki, parametrlərin sayının çox olması seçimi çətinləşdirir. Ona görə də ev təsərrüfatlarının identifikasiya edilməsi üçün bir neçə əsas məlumatlandırıcı parametrin seçilməsi məqsədəuyğun hesab edilir.

Dissertasiya işində rivah səviyyəsinin qiymətləndirilməsində xüsusi əhəmiyyət kəsb edən və müəllif tərəfindən aparılmış sorğular sorğular öz əksini tapmışdır. Respublikanın müxtəlif bölgələrini əhatə edən 628 ev təsərrüfatında keçirilmiş sosioloji sorğu vasitəsi ilə toplanmış məlumatlar əsasında məcmu gəlirlərin (*MG*) formalaşmasının reqressiya tənliyi qurulmuşdur. Yekun reqressiya əmsalları aşağıdakı cədvəldəki kimi alınmışdır (cədvəl 1).

Cədvəl 1

Ev təsərrüfatlarının məcmu gəlirlərinin müəyyənləşdirilməsi üzrə reqressiya təhlilinin nəticələri

| Göstəricilər | Əmsal | T-statistika |
|---|---|---|
| Ailədə əmək qabiliyyətli kişilərin sayı (*K*) | 104,025 | 7,708 |
| Ailədə əmək qabiliyyətli qadınların sayı (*Q*) | 37,315 | 2,744 |
| Ailədə pensiya yaşında olan üzvlərin sayı (*P*) | 50,587 | 3,577 |
| Ailədə 18 yaşadək uşaqların sayı (*U*) | -24,596 | -3,170 |
| Ailədə 18 yaşdan yuxarı əlillərin sayı (*E1*) | -24,746 | -1,176 |
| Ailənin sağlamlıq imkanları məhdud 18 yaşadək üzvlərin sayı (*E2*) | -1,275 | -,045 |
| Ailənin yaşaış yeri (*S*); şəhərdə yaşayırsa *S*=1, kənd yerində yaşayırsa *S*=0 | 146,188 | 4,696 |

| | | |
|---|---|---|
| Ailənin mülkiyyətində torpaq sahəsinin olması ($T$); torpaq sahəsi varsa $T$=1, yoxsa $T$=0 | 21,746 | ,693 |
| Ailənin mülkiyyətində ev heyvanlarının olması ($H$); ev heyvanları varsa $H$=1, yoxsa $H$=0 | 82,114 | 3,563 |
| Sabit | 174,564 | 4,128 |

F-statistika =17,864

Cədvəldən göründüyü kimi, əmək qabiliyyətli kişilər qadınlara nisbətən, ailənin mülkiyyətində olan ev heyvanlarının mövcudluğu torpaq sahəsinə nisbətən daha çox gəlir gətirirlər. Əksinə, ailədə əlillərin, sağlamlıq imkanları məhdud uşaqların olması və ümumiyyətlə uşaqların sayı ümumi gəlirə mənfi təsir göstərir.

Beləliklə, ev təsərrüfatlarının gəlirlərinin formalaşmasının ailənin sosial-demoqrafik profilindən və kənd yerlərində gəlir gətirən əmlakının mövcudluğundan asılılığının reqressiya modeli aşağıdakı kimi alınmışdır:

$$MG = 174.6 + 104.0K + 37.3Q + 50.6P - 24.6U - 24.7E1 - 1.3E2 + 146.2S + 21.7T + 82.1H$$

$$R = 0.755, \quad R^2 = 0.570, \quad DW = 1.397$$

Nəticə: ev təsərrüfatlarının gəlirləri ailənin şəhərdə və ya kənddə yaşaması, əmək qabiliyyətli kişilərin sayı və kənd yerində yaşayanların ev heyvanlarının mövcudluğu ilə daha sıx düz mütənasib əlaqəlidir. Ailədə 18 yaşdan böyük əlillərin sayı isə gəlirlərə mənfi təsir göstərən əsas faktordur.

**“Azərbaycanda əhalinin rifah səviyyəsinin təhlili və rifahın subyektiv qiymətləndirilmə modelinin qurulması”** adlanan üçüncü fəsildə Azərbaycanda əhalinin rifahının inteqral göstəriciləri iqtisadi-riyazi aparat vasitəsi ilə təhlil edilmiş və qiymətləndirilmiş, rifahın subyektiv qiymətləndirilməsi üçün ekonometrik modelin qurulması metodikası işlənmiş, Azərbaycan Respublikasında rifahın subyektiv qiymətləndirilməsi modeli qurulmuşdur.

Təhlil göstərir ki, 2000-ci illə müqayisədə 2012-ci ildə ÜDM istehsalı 13 dəfə, ÜDM-in adambaşına düşən həcmi 11 dəfə artmışdır. 2001-2013-cü illərdə yoxsulluq səviyyəsi 5,4 dəfə azalmışdır. Yoxsulluğun azalmasına ən böyük təsiri iqtisadi artım və əhali gəlirlərinin bərabərsizlik səviyyəsinin aşağı düşməsi göstərmişdir. 2005-2012-ci illərdə əhalinin gəlirləri 4,3 dəfə və onun hər nəfərə düşən həcmi orta hesabla 3784,3 manat olmuşdur.

Ünvanlı dövlət sosial yardım sisteminin tətbiq olunmasından etibarən ev təsərrüfatları gəlirlərinin tərkibində sosial transfertlərin xüsusi çəkisi ardıcıl olaraq artmış və bu artım 2006-2012-ci illər ərzində 2,8 f.v. təşkil etmişdir.

Əhalinin rifah göstəricilərindən olan əmanətlərin məbləği də 2008-2012-ci illər ərzində 2,7 dəfə artmış və onların əhalinin gəlirlərində xüsusi çəkisi 2008-ci ildəki 9,2%-dən 2012-ci ildə 14,7%-ə qədər yüksəlmişdir. Dünya Bankı tərəfindən inkişafı qiymətləndirilən ölkələr arasında 2001-ci ildə aşağı gəlirli ölkə olan Azərbaycan, 2013-cü ildə gəlirləri orta səviyyədən yuxarı ölkələr sırasına daxil edilmişdir.

2000-2012-ci illərdə minimum əməkhaqqı 95,5 dəfə, orta aylıq əməkhaqqı 9,7 dəfə artmışdır. Dövlət büdcəsindən sosial-mədəni sahəyə ayrılan vəsaitin tərkibində sosial müdafiənin payı 27,4%-dən 43%-ə qədər, səhiyyənin payı 10,7%-dən 15%-ə qədər artmışdır. 2005-2012-ci illərdə iqtisadiyyatda məşğul olanların ümumi sayı 9,4% artmış, işsizlik səviyyəsi 5%-ə enmişdir.

Araşdırmalar göstərir ki, rifahın subyektiv qiymətləndirilməsi modelinin qurulması üçün iki növ modeldən istifadə etmək olar: sərhəd modeli və alternativlərin faydalılığına əsaslanan model. Bu tədqiqatda ikinci növ modeldən istifadə edilmişdir. Belə ki, ikidən çox alternativ arasında seçimə baxıldıqda keyfiyyət xarakterli asılı dəyişənlərlə toplu modellərin (nizamlanmış asılı dəyişənlərlə qurulan modellər və multinomial modellər) qurulması zərurəti yaranır.

Rifahın subyektiv qiymətləndirilməsi üçün əhalinin özünün və ya ekspertlərin qiymətləndirilməsi olmaqla iki üsuldan istifadə edilir. Əhalinin özü tərəfindən rifah səviyyəsinin qiymətləndirilməsi ekspert qiymətləndirməsinə nisbətən daha çox subyektiv olduğu üçün bu tədqiqatda ekspert qiymətləndirməsinə üstünlük verilmişdir.

Subyektiv rifahın keyfiyyət göstəricisinin ifadə dərəcələri ev təsərrüfatlarının adambaşına gəliri əsasında verbal şkalada ekspertlər tərəfindən belə qiymətləndirilə bilər: 1- “çox pis”, 2- “pis”, 3 - “çətinliklə”, 4 - “orta”, 5 - “yaxşı” (cədvəl 2).

Təklif edilən metodika natamam və qeyri-səlis informasiyanın, kəmiyyət və keyfiyyət xarakterli verilənlərin, meyarlar çoxluğu və onların çəki əmsallarının ekspert bilikləri əsasında təsvir olunması

vasitəsi ilə hər bir ailədəki (geniş mənada, bütövlükdə ölkədəki) rifahın vəziyyətini adekvat əks etdirməyə imkan verir.

Cədvəl 2

"Ev təsərrüfatlarının (ailələrtin) rifah səviyyəsi" meyarının alt çoxluq elementi olan "adambaşına gəlir"in keyfiyyət qradasiya şkalası

| Adambaşına aylıq gəlir (AZN) | "Adambaşına gəlir"-in keyfiyyət göstəriciləri | Linqvistik qiymət | Keyfiyyət qradasiya |
|---|---|---|---|
| <84 | Adambaşına gəlir ehtiyac meyarından aşağıdır | çox pis | 1 |
| 85-108 | Adambaşına gəlir yaşayış minimumundan aşağıdır | pis | 2 |
| 109-202 | Adambaşına gəlir adambaşına orta istehlak xərcindən aşağıdır | çətinliklə | 3 |
| 203-300 | Adambaşına gəlir adambaşına orta istehlak xərcindən yüksəkdir | orta | 4 |
| >300 | Adambaşına gəlir orta istehlak xərcindən xeyli yüksəkdir | yaxşı | 5 |

Ev təsərüffatlarının subyektiv rifah səviyyəsinə görə bölgüsü göstərir ki, sorğudan keçən ev təsərrüfatlarının çoxunun (35,5%) subyektiv rifahı 3-cü dərəcəli qradasiyası səviyyəsində ("çətinliklə) (cədvəl 3).

Cədvəl 3

Ev təsərüffatlarının subyektiv rifah səviyyəsinə görə bölgüsü

| Rifah səviyyəsi | Qradasiya dərəcəsi (kateqoriya) | Ev təsərüffatlarının sayı | Ümumi saya nəzərən %-lə |
|---|---|---|---|
| çox pis | 1 | 47 | 7,5 |
| pis | 2 | 167 | 26,6 |
| çətinliklə | 3 | 223 | 35,5 |
| orta | 4 | 149 | 23,7 |
| yaxşı | 5 | 42 | 6,7 |
| Cəmi | | 628 | 100,0 |

Ev təsərrüfatının gəlirinin istehlak olunan hissəsi, onun istehlaka olan orta meyli nisbi gəlirlə müəyyən olunur. Bu tədqiqatda istifadə olunan nisbi gəlir dəyişəni kimi ev təsərrüfatlarının aylıq adambaşına gəlirinin yaşayış minimumuna nisbəti götürülmüşdür: ev

təsərrüfatlarının əksəriyyətinin (66,2%) adambaşına gəliri yaşayış minimumundan yuxarıdır.

Ev təsərrüfatlarının rifahının subyektiv qiymətləndirilməsinə çox amillər təsir edir. Bu tədqiqatda qeyri-pul determinantlarının seçim vektoruna aşağıdakı parametrlər daxil edilmişdir: əmək qabiliyyətli üzvlərin xüsusi çəkisinə görə ev təsərrüfatının tipi, ev təsərrüfatının ölçüsü, ev təsərrüfatının ölçüsünün kvadratı, məskunlaşma yeri (kənd-şəhər), ev təsərrüfatında əlil üzvlərin sayı, əmək qabiliyyətli üzvlərin sayı, pensiyaçıların sayı, ailələrin tipi (uşaqlı və uşaqsız ailələr).

Korrelyasiya təhlilinin köməyi ilə dəyişənlər arasında statistik əhəmiyyətli əlaqələrin mövcudluğu müəyyənləşdirildikdən və onların sıxlığı qiymətləndirildikdən sonra subyektiv rifahın loqistik reqressiya modeli qurulmudur.

Azərbaycanda ev təsərüffatlarının rifahının subyektiv qiymətləndirilməsi üçün loqistik modelin aşağıdakı tənliklə ifadə olunması məqsədəmüvafiqdir:

$$Z=\beta_0+\beta_1X_1+\beta_2X_2+\beta_3X_3+\beta_4X_4+\beta_5X_5+\beta_6X_6+\beta_7X_7+\beta_8X_8,$$

burada $X_1$ – adambaşına düşən nisbi gəlir; $X_2$ – əmək qabiliyyətli üzvlərin xüsusi çəkisinə görə ev təsərrüfatının tipi; $X_3$ – ev təsərrüfatının ölçüsü; $X_4$ - ev təsərrüfatının ölçüsünün kvadratı; $X_5$ – əlil üzvlərin sayı; $X_6$ – məskunlaşma yeri (kənd/şəhər); $X_7$ –pensiyaçı üzvlərin olması; $X_8$ – ailələrin uşaqlı və uşaqsız olmasıdır.

İlkin verilənlər massivində "çox pis" və "yaxşı" kateqoriyaları nisbətən az təmsil olunduğuna görə, modelin 2-4 kateqoriyaları ("pis", "çətinliklə" və "orta") üzrə qurulması məqsədəmüvafiqdir. Subyektiv rifahın loqistik reqressiya modeli aşağıdakı kimi alınmışdır:

$$Z_{pis}=223,628-425,111X_1-13,56X_2+51,253X_3-5,682X_4-88,22X_5-1,114X_6+86,134X_7-1,576X_8$$

$$Z_{chet}=-22,251+22,463X_1-1,26X_2+0,201X_3-0,014X_4+0,187X_5-0,791X_6+0,818X_7+0,216X_8$$

$$Z_{orta}=-20,465+20,326X_1+1,36X_2-0,283X_3+0,022X_4-0,148X_5+0,82X_6-0,921X_7-0,126X_8$$

Modelin parametrlərinin təhlili qeyri-pul xarasteristikaların rifahın subyektiv qiymətinə aşagıdakı kimi təsir etdiyini göstərir:

- əmək qabiliyyətli üzvlərin xüsusi çəkisinə görə ev təsərrüfatlarının tipi. Baza kateqoriya (ev təsərrüfatlarının bütün üzvləri əmək qabiliyyətlidir) ilə nisbətdə, ev təsərrüfatlarının digər tipləri

subyektiv rifahın daha aşağı qradasiyasına malikdir: bütün üzvləri əmək qabiliyyətli olan ev təsərrüfatlarının subyektiv rifahın orta qradasiyasına aid olmaq şanşı əmək qabiliyyətlilərin sayı az olan ev təsərrüfatlarına nisbətən 2,9 dəfə artıqdır;

- ev təsərrüfatının ölçüsü. Ev təsərrüfatı üzvlərinin sayı artdıqca subyektiv rifahın nisbətən yuxarı qradasiyaya aid olmaq şansı 24,7% azalır. Ev təsərrüfatının ölçüsünün kvadratı xarakteristikası üzrə isə bu şans əksinə olaraq artır (2,3%);
- ev təsərrüfatlarında əlil üzvlərin olması və onların sayı. Belə ev təsərrüfatlarının subyektiv rifah səviyyəsi azalır: digər faktorların sabit qiymətlərində əlil üzvlərin sayının bir vahid artması rifahın orta qradasiyasına aid olmaq şanşını 13,8% azaldır;
- ev təsərrüfatının məskünlaşma yeri. Kənd yerlərində yaşayanlarla müqayisədə şəhərdə yaşayanların digər bərabər şərtlərdə subyektiv rifahın yüksək qradasiyanına malik olma ehtimalı 1,3 dəfə artıqdır;
- ev təsərrüfatlarında pensiyaçıların olması. Ev təsərrüfatının tərkibində pensiyaçı ailə üzvünün olmaması subyektiv rifahın yüksək qradasiyanın seçim şansını 60,2% artırır;
- ailələrin tipi. Uşaqlı ailələrlə müqayisədə uşaqsız ailələrin subyektiv rifahın daha yuxarı qradasiyasına daxil olma ehtimalı 11,8% artır.

Nəticə dəyişəni olan subyektiv rifah səviyyəsinin müşahidə olunan və model vasitəsi ilə alınan qiymətlərinin təhlili göstərir ki, qurulmuş model subyektiv rifahın "pis" kateqoriyasını daha yaxşı təsvir edir (98,8%). Yəni ilkin olaraq "pis" qradasiyası ilə qiymətləndirilmiş 167 ev təsərrüfatının 165-i üçün model doğru olmuşdur. "Çətinliklə" qradasiyası 85,2%, "orta" qradasiyası isə 43,6% doğru qiymətləndirir. Ümumilikdə isə, model subyektiv rifahı 77,9% doğru qiymətləndirir (cədvəl 4).

Cədvəl 4

Subyektiv rifah səviyyəsinin loqistik modelinin klassifikasiya cədvəli

| Subyektiv rifah səviyyəsi | | Ehtimal olunur | | | Cəmi | Korrektə olunmuş faiz |
|---|---|---|---|---|---|---|
| | | Pis | Çətinliklə | Orta | | |
| Müşahidə olunur | Pis | 165 | 1 | 1 | 167 | 98,8 |
| | Çətinliklə | 8 | 190 | 25 | 223 | 85,2 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | Orta | 30 | 54 | 65 | 149 | 43,6 |
| Cəmi | | 203 | 245 | 91 | 539 | 77,9 |

Təklif edilən metodikanın tətbiqi maddi və qeyri-maddi faktorlar əsasında hər bir ev təsərrüfatlarında (geniş mənada, bütövlükdə ölkədə) subyektiv rifah səviyyəsini adekvat əks etdirən etdirməyə imkan verir və əhalinin rifahının yüksəldilməsi üçün sosial-iqtisadi qərarların qəbulunun dəstəklənməsini təmin edir. Qeyd edək ki, alınmış elmi-praktiki nəticələr Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Elmi-Tədqiqat və Tədris Mərkəzi tərəfindən tətbiq edilmək üçün qəbul edilmişdir.

**Dissertasiya işinin əsas nəticələri:**

- rifahın əsas inteqral göstəriciləri modelləşdirmə obyekti kimi müəyyənləşdirilmiş və müxtəlif əlamətlər üzrə təsnifləşdirilmiş, bu göstəricilərin qiymətləndirilməsi və modelləşdirilməsinə mövcud yanaşmalar tədqiq edilmiş və onların hesablanması üsulları araşdırılmış və sistemləşdirilmişdir;
- rifahın inteqral göstəricilərinin qiymətləndirilməsi modelinin yaradılmasında iqtisadi-riyazi metodların tətbiq edilməsinin zəruriliyi əsaslandırılmışdır;
- Azərbaycanda rifahın inteqral göstəriciləri olan gəlir bərabərsizliyinin və insan inkişafı indeksinin makroiqtisadi faktorlardan asılılığının reqressiya modelləri qurulmuşdur;
- Azərbaycanda rifahın inteqral göstəriciləri ilə demoqrafik faktorlar arasındakı asılılıq müəyyənləşdirilmiş və modelləşdirilmişdir;
- Azərbaycanda əhali gəlirlərinin formalaşmasının ailənin sosial-demoqrafik profilindən və kənd yerlərində gəlir gətirən əmlakının (torpaq sahəsi və ev heyvanları) mövcudluğundan asılılığını əks etdirən çoxölçülü xətti reqressiya tənliyi qurulmuşdur;
- rifah səviyyəsinin subyektiv qiymətləndirməsi üçün sıralanmış loqistik modellərin qurulması metodikası işlənmişdir;
- Azərbaycanda ev təsərrüfatlarının rifah səviyyəsinin yüksəldilməsinə təsir edən faktorların aşkarlanmasına imkan verən rifahın subyektiv qiymətləndirilməsi modeli qurulmuşdur.

**Dissertasiyanın əsas elmi nəticələri üzrə aşağıdakı elmi məqalə və tezislər çap olunmuşdur:**

1. Orucova A.H. Ailə gəlirlərinin modelləşdirilməsinin bəzi aspektləri. //AMEA Xəbərləri, "İqtisadiyyat" seriyası. 2013, №3, səh.99-104.

2. Orucova A.H. Azərbaycanda yoxsulluğun azaldılması rifah səviyyəsinin yüksəldilməsi istiqaməti kimi.Journal of Qafqaz University. Economics and Administration. 2013, №2, səh.188-196.

3. Orucova A.H. İctimai və fərdi rifah: elmi-nəzəri aspektlər. //"Kooperasiya". Elmi-praktiki jurnal. 2014, № 2 (33), s. 20-27.

4. Оруджева А. Благосостояние населения как приоритетное направление социальной политики. //"Экономика и управление: научно-практический журнал". 2014, №3, стр.109-115.

5. Orucova A.H. Rifah göstəricilərinin qiymətləndirilməsinin bəzi aspektləri. /Bakı Dövlət Universitetində keçirilmiş Azərbaycan Ümumimilli Lideri Heydər Əliyein 91 illiyinə həsr olunmuş "Riyaziyyatın tətbiqi problemləri" Respublika Elmi Konfransının materialları. Bakı, 14 may 2014, səh. 84-86.

6. Orucova A.H. Rifah göstəricilərinin qiymətləndirilməsinə dair. /Lənkəran Dövlət Universitetində keçirilmiş Ümumimilli Lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr olunmuş "Müasir elmin aktual problemləri" Respublika Elmi Konfransının materialları. Lənkəran, 2014, səh.85-88.

7. Orucova A.H. Azərbaycan Respublikasında rifahın subyektiv qiymətləndirilməsi modeli.//Maliyyə və uçot jurnalı. 2014, №9, səh.26-36.

8. Orucova A.H. Sosial siyasətin analitik aləti kimi rifahın inteqral göstəricilərinin qiymətləndirilməsi və modelləşdirdirilməsi. //Bakı Dövlət Universitetinin xəbərləri. 2013, №4.

**Оруджева Айнур Гамзага кызы**

**Моделирование интегральных показателей благосостояния в Азербайджанской Республике**

**Резюме**

В диссертации исследованы классические и современные научно-теоретические подходы к категории «благосостояние населения», определены и классифицированы интегральные показатели благосостояния как объекта моделирования. Учитывая, что благосостояние – это сложная социально-экономическая категория общественного воспроизводства, были выявлены, проанализированы и смоделированы основные макроэкономические факторы, влияющие на эту категорию. На основе изучения теоретического и практического инструментария анализа уровня благосостояния были предложены наиболее оптимальные экономико-математические методы оценки и моделирования показателей благосостояния в целях реализации комплексной обоснованной политики государства в этой сфере.

Ранжируя по степени влияния, автор разработал эконометрические модели зависимости интегральных показателей благосостояния от основных макроэкономических факторов. На основе исследования взаимного воздействия благосостояния и демографических факторов автором были построены регрессионные модели этой взаимосвязи.

С учетом статистических данных и результатов социологических исследований осуществлен анализ и интегральная оценка показателей благосостояния в Азербайджане на основе применения экономико-математических методов. Обосновывая необходимость комплексного исследования субъективного и объективного подходов к оценке благосостояния в Азербайджане, автор разработал методику построения логистических моделей для субъективной оценки благосостояния. Впервые была разработана модель субъективной оценки благосостояния домохозяйств Азербайджана, которая дает возможность выявить и учесть по степени влияния комплекс факторов, способствующих росту уровня благосостояния.

**Orujova Aynur Hamzaga**

## Modeling of integrated indicators of welfare in the Azerbaijan Republic

### Summary

The thesis dealt with the classical and modern scientific-theoretical approaches to the category "welfare of the population", defined and classified integrated indicators of welfare as an object of modeling. Considering that welfare is a difficult socio-economic category of a public reproduction, the major macroeconomic factors influencing this category were revealed, analyzed and simulated. Based on the study of theoretical and practical tools of analysis of welfare have been proposed optimal economic and mathematical methods for evaluation and modeling of welfare indicators for the realization of complex reasonable policies in this area.

Ranking the degree of influence, the author has developed econometric models depending on integral indicators of well-being from the main macroeconomic factors. Based on a research of mutual influence of welfare and demographic factors, were constructed regression model of this relationship by the author.

Taking into account the statistical data and the results of sociological researches carried out the analysis and evaluation of integrated indicators of welfare in Azerbaijan based on the application of economic-mathematical methods. Proving the need of complex research subjective and objective approaches to the welfare assessment in Azerbaijan, the author developed the method of creation logistic models for the subjective assessment of welfare. For the first time it was developed subjective assessment of household welfare of Azerbaijan, which gives the opportunity to reveal and consider the degree of influence of factors that contribute to the growth of welfare.

Kağız formatı 60x84, 1/16
Sayı 100.

Bakı Dövlət Universitetinin Nəşriyyatı
Bakı – 370073, Z.Xəlilov küçəsi 23.
BDU Nəşriyyatının mətbəəsi

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

***На правах рукописи***

**ОРУДЖЕВА АЙНУР ГАМЗАГА КЫЗЫ**

# МОДЕЛИРОВАНИЕ ИНТЕГРАЛЬНЫХ ПОКАЗАТЕЛЕЙ БЛАГОСОСТОЯНИЯ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ

**5302.01 – Эконометрия**

**АВТОРЕФЕРАТ**

диссертации на соискание ученой степени доктора философии по экономике

**БАКУ - 2014**